# AZƏRBAYCAN TEXNOLOGİYA UNİVERSİTETİNDƏ “MƏZUN-2015” ƏMƏK YARMARKASI



Bu gün dövlət quruculuğunun böyük hissəsində məhz gənclər fəaliyyət göstərir, çiçəklənən Azərbaycanımızın tərəqqisinə öz töhfəsini verməkdədir. Məzunların işlə təmin olunması istiqamətində dövlət tərəfindən çox ciddi və məqsədyönlü addımlar atılmaqdadır. Ümumən məzunların işlə təmin olunması hər bir universitet üçün prioritet məsələlərdən hesab olunur. Onlar məzunların taleyinə biganə qalmır, iş dünyası ilə sıx əlaqə saxlayırlar. Bu baxımdan növbəti tədbir – Gəncə Şəhər İcra Hakimiyyətinin, Təhsil Nazirliyinin, Dövlət Məşğulluq Xidmətinin və Azərbaycan Texnologiya Universitetinin təşkilatçılığı ilə “Məzun-2015” əmək yarmarkası təşkil olunmuşdur.

Tədbirdə Azərbaycan Texnologiya Universitetinin rektor əvəzi Rövşən Əliyev Azərbaycanda gedən sürətli və innovativ inkişafdan, Gəncə şəhərində yüksək templə aparılan abadlıq və quruculuq işlərindən danışaraq gənclərin rolundan söhbət açdı. Bildirdi ki, bu tədbiri keçirməkdə əsas məqsəd Gəncə şəhərində yerləşən ali məktəblərin məzunlarını vakansiyada olan iş yerlərilə tanış etməkdən ibarətdir. Bu gün dəvət olunmuş 35 idarə və təşkilatlardan 700-dək vakansiya yerləri məzunlara



təklif olunur. Azərbaycan Texnologiya Universitetinin müxtəlif ixtisasları üzrə bakalavr və magistr təhsil pillələrini bitirən məzunlar bu əmək yarmarkasında müvafiq ixtisaslar üzrə iş yerləri barədə məlumat aldılar.

Onu da qeyd etmək lazımdır ki, ali təhsilli gənc məzunların öz ixtisaslarına uyğun olaraq müvafiq işlə təmin edilməsi məqsədilə universitet tərəfindən dəvət edilmiş “Məzun-2015” əmək yarmarkasında iştirak edən “Göy-göl” şərab zavodu, “Gəncə Şərab-2” ASC, Gəncə Şəhər Statistika İdarəsi, Gəncə Şəhər Kəpəz Bələdiyyəsi, Gəncə Şəhər Nizami Bələdiyyəsi, Gəncə Şəhər Yaşıllaşdırma İdarəsi, “Det-Al Alüminium” ASC, “Gəncəbank SKB” ASC, “Parabank” ASC, “Beynəlxalq Bank” ASC-nin Gəncə filialı, “Bank Respublika” ASC-nin Gəncə filialı, “Kapital Bank” ASC-nin Kəpəz filialı, “Rabitə Bank” ASC-nin Gəncə filialı, Vision Fond Azər Kredit MMC Gəncə filialı, Access Bank Gəncə filialı, “Azərbaycan Türkiyə” şirkəti, Sinerji Group, “Şərq Ulduzu” MMC, Sport Luxary Travel, “Az. Granada” MMC, Azərsun Holdinq, EFES Travel MMC, Az. ETÜŞİ-nin Gəncə Üzümçülük və Şərabçılıq Təcrübə Stansiyası, Yevlax şəhər “Lalə-tekstil” MMC, Goranboy Rayon Məşğulluq İdarəsi, Şəmkir Rayon Məşğulluq İdarəsi, Samux Rayon Məşğulluq İdarəsi, “Neon” firması, Viator Bank və s. kimi idarə və müəssisələrin nümayəndələri məzunları ixtisaslarına olan tələbat barədə geniş məlumatlandırdılar. Məzunlar işəgötürülənlərlə bilavasitə qarşılıqlı ünsiyyət imkanı əldə edib, gələcəkdə işə qəbul olunmaq istədikləri müəssisələrin nümayəndələrinə özləri barədə şəxsi məlumatlarını təqdim etdilər. İşəgötürənlər isə bu tədbirlər vasitəsilə qısa vaxt ərzində ixtisaslı kadrların seçiminin aparılması imkanı qazandılar.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**